## Vergilər Nazirliyinin Tədris Mərkəzi

# 2013-cü il ərzində görülmüş işlər barədə

# H E S A B A T



2013

Dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşə malik olan prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Vergi sistemində aparılan islahatların uğurlu nəticələnməsi, eyni zamanda, vergi orqanlarının insan resursları potensialından istifadənin düzgün istiqamətlənməsindən birbaşa asılıdır.

Vergilər Nazirliyi vergi orqanları əməkdaşlarının peşəkarlıq və ixtisas səviyyəsinin artırılmasını daim diqqətdə saxlayır və bu istiqamətdə məqsədyönlü tədbirlərini davam etdirir. Dövlət vergi orqanlarının bütün fəaliyyət istiqamətləri üzrə inkişafı, elmi-texniki tərəqqinin tətbiqi ilə modernləşdirilməsi, kadr ehtiyatının bacarıqlı gənclərlə zənginləşdirilməsi bütün funksional fəaliyyət istiqamətlərinin inkişafı sahəsində Nazirliyin həyata keçirdiyi siyasətin ana xəttini təşkil edir.

Cari ilin may ayının 3-də Vergilər Nazirliyinin 2012-ci ilin və 2013-cü ilin I rübünün yekunları və Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr olunan Kollegiya iclasında "Vergilər Nazirliyi sistemində tədris və təlimin vəziyyəti, problemlər və perspektivlər haqqında" mövzusunda təqdimatın edilməsi Nazirliyin vergi orqanları əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə olan xüsusi diqqətinin bariz ifadəsidir.

Ötən ilin sonundan başlayaraq vergi orqanları əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi sahəsində elmi konsepsiyalara əsaslanan layihələrin hazırlanması və onların reallaşdırılması üçün fasiləsiz, sistemli, səmərəli və beynəlxalq təcrübəyə əsaslanan keyfiyyətli təhsilin, təlimin və tədrisin təmin edilməsi istiqamətində aşağıdakı işlər yerinə yetirilmişdir.

## 1. Tədris prosesinin tədris-metodiki təminatı sahəsində

*Hesabat dövrü ərzində Tədris Mərkəzində kurslar üzrə tədris-mövzu planları və tədris proqramları mövcud qanunvericiliklərə və normativ-hüquqi aktlara edilən əlavə və dəyişikliklər, həmçinin dinləyicilərin tədris tələbatları nəzərə alınmaqla yenidən hazırlanmışdır.*

Belə ki, Azərbaycan Respublikası vergilər nazirinin 28 fevral 2013-cü il tarixli 1317041400181500 nömrəli, 1 mart 2013-cü il tarixli 1317041400178700 nömrəli və 11 aprel 2013-cü il tarixli 1317040100282100 nömrəli əmrləri ilə dövlət vergi orqanlarının orta menecerlər və mütəxəssislər təlim qruplarına aid edilən əməkdaşları üçün ixtisasartırma təhsili üzrə müvafiq funksional istiqamətlərə uyğun aşağıdakı tədris-mövzu planları yeni redaksiyada təsdiq edilmişdir:

- Vergi qanunvericiliyi və inzibatçılığı (Kommersiya hüququ şəxslərin dövlət qeydiyyatı idarəsinin əməkdaşları üçün);

- Vergi ödəyicilərinə xidmət idarəsinin Telefon Məlumat Xidmətinin müfəttiş-operatorları üçün vergi qanunvericiliyi və inzibatçılığı sahəsində tədris kursu;

- Dövlət vergi orqanlarında auditin təşkili;

- Dövlət vergi orqanlarında operativ vergi nəzarəti işlərinin təşkili;

- Dövlət vergi orqanlarında qeydiyyat və uçot işinin təşkili;

- Dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət işinin təşkili;

- Dövlət vergi orqanlarında kargüzarlıq və koordinasiya işlərinin təşkili;

- Təqdim edilməmiş bəyannamələrin və vergi borclarının alınması işlərinin təşkili;

- Dövlət vergi orqanlarında hüquqi təminat işinin təşkili;

- İstehsal müəssisələrində vergi auditinin keçirilməsi.

*İlkin hazırlıq kursunun tədris planı və həmin plana daxil olan aşağıdakı fənlərin tədris-mövzu planları və tədris proqramları müvafiq qanunvericiliklərə edilən əlavə və dəyişikliklər nəzərə alınmaqla yenilənmişdir:*

- Vergi qanunvericiliyi;
- Vergi inzibatçılığı;
- Hüquqi biliklərin əsasları;
- İqtisadiyyatın dövlət tənzimlənməsi;
- Mühasibat uçotu;
- Kompüter biliklərinin əsasları;
- Xüsusi mövzular.

*Tədrisin səmərəliliyinin yüksəldilməsinin təmin olunması üçün tədris proqramları və mövzuları vergi orqanlarının ehtiyacları əsasında müəyyənləşdirilərək tərtib edilmişdir.*

Ənənəvi təhsil sistemi tətbiq edilməklə keçirilən ixtisasartırma və ilkin hazırlıq kurslarında tədris olunan mövzuların POWER-POİNT proqramında təqdimat materialları və praktiki məsələlər, habelə kombinə edilmiş və məsafədən təhsil sistemləri tətbiq edilməklə keçirilən ixtisasartırma və ilkin hazırlıq kurslarında tədris olunan fənlərin HTML formatda tədris materialları müvafiq qanunvericiliklərə edilən əlavə və dəyişikliklər nəzərə alınmaqla yenidən hazırlanmışdır.

*Tədris Mərkəzinin 2013-2014-cü illər üçün Tədris Proqramı hazırlanmışdır.*

İxtisasartırma və ilkin hazırlıq kursunun yekunu üzrə təşkil olunan imtahanların müvafiq test bazalarında qanunvericiliklərə edilən əlavə və dəyişikliklər nəzərə alınmaqla düzəlişlərin aparılması təmin edilmişdir.

Tədris prosesinin səmərəliliyinin yüksəldilməsi məqsədilə AVİS-də «Tədris» altsisteminin aşağıdakı modulları hazırlanaraq istifadəyə verilmişdir:

- Dinləyicilərin müəyyən edilməsi;
- Dinləyicilərin ilkin qeydiyyatı;
- Tədris mövzularının daxil edilməsi;
- Tədris-mövzu planı, tədris planı və dərs cədvəlinin tərtib edilməsi;
- Dərs jurnalı;
- İmtahan protokolu;
- İlkin və yekun qiymətləndirmə nəticələrinin daxil edilməsi.

## 2. Müvafiq tədris kurslarının təşkili və keçirilməsi sahəsində

Azərbaycan Respublikası vergilər nazirinin "Vergilər Nazirliyinin 2013-cü il üçün illik tədris (təlim) qrafikinin təsdiq edilməsi barədə" 11 aprel 2013-cü il tarixli 1317040100282100 nömrəli əmri ilə əməkdaşların peşə hazırlığının ilkin hazırlıq, ixtisasartırma və qısamüddətli təlim formalarından istifadə olunmaqla *Vergilər Nazirliyinin 2013-cü il ərzində orta menecerlər və mütəxəssislər təlim qruplarına aid edilən əməkdaşları üçün illik tədris (təlim) qrafiki təsdiq edilmişdir*.

Qeyd edək ki, həmin tədris qrafiki Vergilər Nazirliyi yanında TMŞ-nin 18 mart 2013-cü il tarixli ilk iclasında müzakirə edilərək təsdiq olunmaq üçün vergilər nazirinə təqdim edilməsi tövsiyə olunmuşdu.

2013-cü ildə həyata keçirilmiş tədris-təlim tədbirləri ilə kəmiyyət baxımında əsaslı yüksəlişə nail olunmuşdur. Belə ki, 2013-cü ilin tədris qrafikində təlim müddəti 1-3 gün olan 18 təlim kursunun, 2,5 ay olan 3 ilkin hazırlıq kursunun və müxtəlif funksional fəaliyyət istiqamətlərini əhatə edən 25 ixtisasartırma kursunun keçirilməsi nəzərdə tutulmuşdu.

Cari ildə 23 qısamüddətli təlimin, 3 ilkin hazırlıq kursunun və 29 ixtisasartırma kursunun keçirilməsi təmin olunmuşdur.

2013-cü ildə 1204 nəfər vergi orqanı əməkdaşı tədris prosesinə cəlb olunmuşdur. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2011-ci ildə 473 nəfər, 2012-ci ildə isə 707 nəfər olmuşdur.

Bu il ixtisasartırma kurslarında 497 nəfər iştirak etmişdir ki, onlardan 440 nəfəri mütəxəssislər təlim qrupuna, 57 nəfəri isə orta menecerlər təlim qrupuna aiddirlər. İlkin hazırlıq kursuna 62 nəfər, təlimlərə isə 645 nəfər cəlb olunmuşdur.

## 2003-2013-ci il illər ərzində keçirilmiş tədris kursları barədə məlumat

| İllər | İxtisasartırma kursları | | | İlkin hazırlıq kursları | | | Qısamüddətli treninqlər | | | Tədrisə sərf olunan adam-günlərin sayı | Bir işçiyə düşən adam-günlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kurs sayı | Dinləyici sayı | Adam-gün | Kurs sayı | Dinləyici sayı | Adam-gün | Kurs sayı | Dinləyici sayı | Adam-gün | | |
| 2003 | 4 | 88 | 1490 | - | - | - | 12 | 207 | 518 | 2008 | 1,0 |
| 2004 | 11 | 198 | 2111 | - | - | - | 11 | 186 | 361 | 2472 | 1,3 |
| 2005 | 16 | 287 | 2866 | 1 | 20 | 200 | 7 | 241 | 716 | 3782 | 1,9 |
| 2006 | 14 | 240 | 2400 | 2 | 37 | 2593 | 6 | 78 | 96 | 5089 | 2,5 |
| 2007 | 19 | 298 | 3208 | 3 | 55 | 2180 | 10 | 177 | 214 | 5602 | 2,8 |
| 2008 | 17 | 285 | 4072 | 3 | 62 | 3221 | 7 | 97 | 163 | 7456 | 3,7 |
| 2009 | 5 | 77 | 1295 | 7 | 143 | 8228 | 10 | 168 | 323 | 9846 | 4,9 |
| 2010 | 5 | 112 | 2464 | 8 | 173 | 10070 | 11 | 197 | 197 | 12731 | 6,0 |
| 2011 | 3 | 59 | 531 | 7 | 149 | 5478 | 10 | 265 | 315 | 6324 | 3,2 |
| 2012 | 2 | 48 | 657 | 11 | 206 | 6134 | 12 | 453 | 622 | 7413 | 3,7 |
| 2013 | 29 | 497 | 7477 | 3 | 62 | 1798 | 23 | 645 | 1085 | 10360 | 4,7 |
| **Cəmi** | **125** | **2189** | **28571** | **45** | **907** | **39902** | **119** | **2714** | **4610** | **73083** | |

## 2013-cü il ərzində Tədris Mərkəzində keçirilmiş təlimlər barədə məlumat

| s/s | Proqramın adı | Keçirilmə müddəti, gün | Dinləyici sayı | Adam/ gün |
|---|---|---|---|---|
| 1 | Kameral vergi yoxlamalarının aparılması qaydası. Mənfəət vergisi bəyannaməsinin xüsusi hissəsi ilə əlavələrinin uzlaşmasına nəzarət qaydası | 2 | 50 | 100 |
| 2 | İnsan resurslarının idarə olunması sahəsində fəaliyyət göstərən əməkdaşları üçün təlim | 3 | 23 | 69 |
| 3 | Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanunu | 1 | 27 | 27 |
| 4 | “Vergi auditinin keçirilməsi Qaydaları” mövzusunda təlim | 2 | 16 | 32 |
| 5 | “Vergi borclarının alınması sahəsi üzrə tətbiq edilən mexanizmlər və yanaşma metodları” | 1 | 32 | 32 |
| 6 | Təlimçilərin təlimi | 3 | 43 | 129 |
| 7 | Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında | 2 | 30 | 60 |
| 8 | Vergi proqnozlarının icrası strukturlarının əməkdaşları üçün qanunvericilik sahəsində keçirilən təlim | 1 | 26 | 26 |
| 9 | Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri | 1 | 26 | 26 |
| 10 | Əmək münasibətlərinə və dövlət satınalmalarına vergi nəzarəti | 2 | 22 | 44 |
| 11 | Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən göstərilən xidmətlərin tətbiqi | 1 | 23 | 23 |
| 12 | | 1 | 21 | 21 |
| 13 | | 1 | 24 | 24 |
| 14 | Kommersiya hüquqi şəxslərin iştirak paylarının vergiyə cəlb edilməsi, kommersiya qurumlarının dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi | 1 | 19 | 19 |
| 15 | Vergi orqanlarında hüquqi işlərin təşkili | 2 | 19 | 38 |
| 16 | Vergi potensialının müəyyən edilməsi və vergidən yayınma risklərinin qiymətləndirilməsi | 1 | 50 | 50 |

| | | | | |
|---|---|---|---|---|
| 17 | Vergi borclarının alınması sahəsi üzrə işlərin təşkili | 2 | 32 | 64 |
| 18 | Vergi ödəyicilərinə göstərilən xidmətlər | 2 | 27 | 54 |
| 19 | "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununa uyğun olaraq Vergilər Nazirliyinin təsdiq etdiyi yeni normativ sənədlərin tətbiqi | 2 | 43 | 86 |
| 20 | Vergi borclarının alınması sahəsi üzrə işlərin təşkili | 1 | 25 | 25 |
| 21 | Hüquqi və fiziki şəxslərin uçota alınması və onların uçotunun ləğv edilməsi | 2 | 17 | 34 |
| 22 | Dövlət satınalmalarına və əmək münasibətlərinə vergi nəzarəti | 2 | 23 | 46 |
| 23 | Vergi partnyorluğu Sazişlərinin bağlanması işinin təşkili | 2 | 25 | 50 |
| | **Cəmi** | | **645** | **1085** |

İxtisasartırma kursları aşağıdakı funksional istiqamətlər üzrə olmuşdur:

Dövlət vergi orqanlarında operativ vergi nəzarəti işlərinin təşkili – 4;

Dövlət vergi orqanlarında auditinin təşkili – 4;

Dövlət vergi orqanlarında qeydiyyat və uçot işlərinin təşkili – 5;

Təqdim edilməmiş bəyannamələrin və vergi borclarının alınması işlərinin təşkili – 4;

Dövlət vergi orqanlarında hüquqi təminat işlərinin təşkili – 2;

Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində illik təlim proqramı üzrə ixtisasartırma kursu (TMX_195) – 1;

Vergi qanunvericiliyi və inzibatçılığı proqramı üzrə ixtisasartırma kursu (KHŞDQ) -1;

İstehsal müəssisələrində vergi auditinin keçirilməsi (VAD) – 1;

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları üçün tədris kursu - 3;

Vergi ödəyicilərinə xidmət mərkəzlərinin büdcədənkənar fond hesabına müfəttişləri üçün tədris kursu – 1;

Dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət işinin təşkili – 2;

Dövlət vergi orqanlarında kargüzarlıq və koordinasiya işlərinin təşkili – 1.

**2013-cü il ərzində Tədris Mərkəzində keçirilmiş ixtisasartırma kurslarında qrupların nəticələri barədə məlumat**

| s/s | Proqramın adı | Keçiril-mə müddəti, gün | Dinlə-yici sayı | Adam/ gün | Qrupun ilkin qiymətləndi rilməsi, faizlə | Qrupun yekun qiymətləndi rilməsi, faizlə | İlkin və yekun qiymətləndir-mələr ara-sında fərq, faizlə (+) |
|---|---|---|---|---|---|---|---|
| 1 | Dövlət vergi orqanlarında operativ vergi nəzarəti işlərinin təşkili | 13 | 20 | 260 | 57,0 | 77,1 | 20,1 |
| 2 | | 13 | 17 | 221 | 56,3 | 75,3 | 19,0 |
| 3 | | 13 | 17 | 221 | 51,0 | 75,0 | 24,0 |
| 4 | | 13 | 18 | 234 | 59,0 | 79,0 | 20,0 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 5 | Dövlət vergi orqanlarında auditin təşkili | 13 | 19 | 247 | 54,0 | 76,5 | 22,5 |
| 6 | | 13 | 15 | 195 | 58,9 | 81,8 | 22,9 |
| 7 | | 13 | 14 | 182 | 53,0 | 76,0 | 23,0 |
| 8 | | 13 | 14 | 182 | 49,0 | 71,6 | 22,6 |
| 9 | Dövlət vergi orqanlarında qeydiyyat və uçot işlərinin təşkili | 13 | 19 | 247 | 58,0 | 83,6 | 25,6 |
| 10 | | 13 | 20 | 260 | 58,1 | 84,7 | 26,6 |
| 11 | | 13 | 19 | 247 | 65,0 | 87,0 | 22,0 |
| 12 | | 13 | 18 | 234 | 70,0 | 84,0 | 14,0 |
| 13 | | 13 | 18 | 234 | 59,0 | 83,0 | 24,0 |
| 14 | Təqdim edilməmiş bəyannamələrin və vergi borclarının alınması işlərinin təşkili | 13 | 19 | 247 | 52,0 | 76,5 | 24,5 |
| 15 | | 13 | 19 | 247 | 48,7 | 71,7 | 23,0 |
| 16 | | 13 | 17 | 221 | 55,0 | 75,0 | 20,0 |
| 17 | | 13 | 20 | 260 | 59,0 | 78,0 | 19,0 |
| 18 | Dövlət vergi orqanlarında hüquqi təminat işinin təşkili | 13 | 18 | 234 | 47,9 | 82,6 | 34,7 |
| 19 | | 13 | 13 | 169 | 74,0 | 91,0 | 17,0 |
| 20 | Dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət işinin təşkili | 13 | 20 | 260 | 54,0 | 76,2 | 22,2 |
| 21 | | 13 | 15 | 195 | 60,0 | 86,0 | 26,0 |
| 22 | Dövlət vergi orqanlarında kargüzarlıq və koordinasiya işlərinin təşkili | 11 | 13 | 143 | 65,0 | 85,0 | 20,0 |
| 23 | Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində illik təlim proqramı üzrə ixtisasartırma kursu (TMX_195) | 43 | 22 | 946 | | 90,9 | |
| 24 | Vergi qanunvericiliyi və inzibatçılığı proqramı üzrə ixtisasartırma kursu (KHŞDQ) | 43 | 12 | 516 | | 79,0 | |
| 25 | İstehsal müəssisələrində vergi auditinin keçirilməsi (VAD) | 21 | 32 | 672 | | 79,9 | |
| 26 | Vergi ödəyicilərinə xidmət mərkəzinin büdcədənkənar fond hesabına müfəttişləri üçün tədris kursu | 10 | 24 | 240 | | 76,0 | |
| 27 | Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları üçün tədris kursu | 5 | 12 | 60 | | | |
| 28 | | 6 | 8 | 48 | | | |
| 29 | | 11 | 5 | 55 | | | |
| **Yekun** | | | **497** | **7477** | **57,7** | **79,4** | **21,7** |

Hesabat dövründə keyfiyyət göstəricilərində də artım müşahidə olunmuşdur. Əksər inkişaf etmiş ölkələrdə, o cümlədən Avropadaxili Vergi Administrasiyaları Təşkilatına üzv ölkələrin vergi orqanlarında il ərzində bir vergi işçisi üçün tədrisin kifayətlilik göstəricisi bir həftə (5 iş günü) qəbul edilmişdir. Cari ildə bir vergi orqanı əməkdaşına düşən təlim günlərinin sayı 4,7 adam-gün olmuşdur. Müqayisə üçün qeyd

edək ki, 2011-ci ildə həmin göstəricinin kəmiyyəti 3,2 adam-gün, 2012-ci ildə isə 3,7 adam-gün təşkil etmişdir.

**Vergilər Nazirliyi sistemində 2011-ci, 2012-ci illər və 2013-cü il ərzində təşkil olunan müvafiq tədris kursları və təlimlər barədə məlumat**

| Hesabat dövrü | *İxtisasartırma kursları* | | | | *İlkin hazırlıq kursları* | | *Qısamüddətli treninqlər* | | **Bir işçiyə düşən təlim günləri** |
|---|---|---|---|---|---|---|---|---|---|
| | *Kurs sayı* | *Dinləyici sayı* | | | *Kurs sayı* | *Dinləyici sayı* | *Kurs sayı* | *Dinləyici sayı* | |
| | | *Cəmi* | *o cümlədən* | | | | | | |
| | | | *Mütəxəssislər* | *Orta menecerlər* | | | | | |
| 2011 | 3 | 59 | 59 | - | 7 | 149 | 10 | 265 | **3,2** |
| 2012 | 2 | 48 | 48 | - | 11 | 206 | 12 | 453 | **3,7** |
| 2013 | 29 | 497 | 440 | 57 | 3 | 62 | 23 | 645 | **4,7** |

Tədris kurslarının səmərəliliyinin təmin olunması nöqteyi-nəzərindən dinləyicilərin ehtiyaclarının və daha çox diqqət yetirilməli olan məsələlərin dəqiqləşdirilməsi üçün dinləyicilərin peşə hazırlığının və bilik səviyyəsinin ilkin qiymətləndirilməsi və tədris kursunun sonunda müvafiq tövsiyənin verilməsi üçün son qiymətləndirmə aparılır.

2013-cü ildə ixtisasartırma kursları üzrə biliklərin ilkin qiymətləndirilməsinin nəticələri 57,5%, yekun qiymətləndirmə isə 79,4% olmuşdur. Beləliklə, tədris prosesi nəticəsində biliklərin artımı 21,7% olmuşdur. İxtisasartırma kurslarında ilkin nəticələrin nisbətən aşağı olması son illərdə mütəxəssislər üçün ixtisasartırma kurslarının az təşkil olunması ilə əlaqədar olmuşdur.

2013-cü ildə ilkin hazırlıq kurslarında ilkin qiymətləndirmə 61,3%, yekun qiymətləndirmə isə 84,2% olmaqla artım 22,9% təşkil etmişdir.

**2013-cü il ərzində Tədris Mərkəzində keçirilmiş ilkin hazırlıq kursları barədə məlumat**

| s/s | Proqramın adı | Keçirilmə müddəti, gün | Dinləyici sayı | Adam/ gün | Qrupun ilkin qiymətləndirilməsi, faizlə | Qrupun yekun qiymətləndirilməsi, faizlə | İlkin və yekun qiymətləndirmə arasında fərq, faizlə (+) |
|---|---|---|---|---|---|---|---|
| 1 | İlkin hazırlıq 43 | 29 | 23 | 667 | 53,0 | 82,5 | 29,5 |
| 2 | İlkin hazırlıq 44 | 29 | 20 | 580 | 68,0 | 87,0 | 19,0 |
| 3 | İlkin hazırlıq 45 | 29 | 19 | 551 | 63,0 | 83,0 | 20,0 |
| **Yekun** | | | **62** | **1798** | **61,3** | **84,2** | **22,9** |

Cari ildə ixtisasartırma kursları üzrə ilkin və yekun qiymətləndirmələr arasındakı müsbət fərq (21,7%) 2008-2012-ci illəri əhatə edən dövrün orta göstəricisi (14,1%) ilə müqayisədə 7,6%, ilkin hazırlıq kursları üzrə isə 0,6% çox olmuşdur.

**2013-cü il üzrə təhsil nəticələrinin 2008-2012-ci illəri əhatə edən dövrün nəticələri ilə müqayisə cədvəli**

| Göstəricilər | 2008-2012-ci illər | | | 2013-cü il | | | Fərq, faiz bəndi (süt.7-süt.4) |
|---|---|---|---|---|---|---|---|
| | İlkin qiymətləndirmə, faizlə | Yekun qiymətləndirmə, faizlə | Artın, faiz bəndi (süt.3-süt.2) | İlkin qiymətləndirmə, faizlə | Yekun qiymətləndirmə, faizlə | Artın, faiz bəndi (süt.6-süt.5) | |
| İxtisasartırma | 62,5 | 76,6 | 14,1 | 57,7 | 79,4 | 21,7 | 7,6 |
| İlkin hazırlıq | 61,1 | 83,3 | 22,3 | 61,3 | 84,2 | 22,9 | 0,6 |

Tədris ilinin yekunu üzrə dinləyicilərin 4%-i “qeyri-kafi”, 27%-i “kafi”, 49%-i “yaxşı” 20%-i isə “əla” qiymətlər almışlar.

**2013-cü ildə keçirilmiş ixtisasartırma kursları və onların nəticələri barədə məlumat**

| N | Proqramın adı | Keçirilmə müddəti, gün | Dinləyicilərin sayı | Adam/gün | Qrupun ilkin qiymətləndirilməsi, faizlə | Qrupun yekun qiymətləndirilməsi, faizlə | İlkin və yekun qiymətləndirmə arasındakı fərq, faizlə (+) | Qiymət | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | 2 | 3 | 4 | 5 |
| | | **İxtisasartırma** | | | | | | | | | |
| 1 | Dövlət vergi orqanlarında operativ vergi nəzarəti işlərinin təşkili | 13 | 20 | 260 | 57,0 | 77,1 | 20,1 | - | 7 | 13 | |
| 2 | | 13 | 17 | 221 | 56,3 | 75,3 | 19,0 | 1 | 5 | 11 | |
| 3 | | 13 | 17 | 221 | 51,0 | 75,0 | 24,0 | 1 | 7 | 8 | 1 |
| 4 | | 13 | 18 | 234 | 59,0 | 79,0 | 20,0 | - | 5 | 11 | 2 |
| **Cəmi** | | **52** | **72** | **936** | **55,8** | **76,6** | **20,8** | **2** | **24** | **43** | **3** |
| 1 | Dövlət vergi orqanlarında auditin təşkili | 13 | 19 | 247 | 54,0 | 76,5 | 22,5 | 2 | 11 | 5 | 1 |
| 2 | | 13 | 15 | 195 | 58,9 | 81,8 | 22,9 | - | 3 | 10 | 2 |
| 3 | | 13 | 14 | 182 | 53,0 | 76,0 | 23,0 | - | 6 | 6 | 2 |
| 4 | | 13 | 14 | 182 | 49,0 | 71,6 | 22,6 | 2 | 6 | 5 | 1 |
| **Cəmi** | | **52** | **62** | **806** | **53,7** | **76,5** | **22,8** | **4** | **26** | **26** | **6** |
| 1 | Dövlət vergi orqanlarında qeydiyyat və uçot işlərinin təşkili | 13 | 19 | 247 | 58,0 | 83,6 | 25,6 | - | 3 | 11 | 5 |
| 2 | | 13 | 20 | 260 | 58,1 | 84,7 | 26,6 | - | 2 | 12 | 6 |
| 3 | | 13 | 19 | 247 | 65,0 | 87,0 | 22,0 | - | | 15 | 4 |
| 4 | | 13 | 18 | 234 | 70,0 | 84,0 | 14,0 | - | 3 | 9 | 6 |
| 5 | | 13 | 18 | 234 | 59,0 | 83,0 | 24,0 | - | 5 | 12 | 1 |
| **Cəmi** | | **65** | **94** | **1222** | **62,0** | **84,5** | **22,4** | **0** | **13** | **59** | **22** |
| 1 | Təqdim edilməmiş bəyannamələrin və vergi borclarının alınması işlərinin təşkili | 13 | 19 | 247 | 52,0 | 76,5 | 24,5 | 4 | 10 | 5 | |
| 2 | | 13 | 19 | 247 | 48,7 | 71,7 | 23,0 | 1 | 12 | 5 | 1 |
| 3 | | 13 | 17 | 221 | 55,0 | 75,0 | 20,0 | 1 | 8 | 6 | 2 |
| 4 | | 13 | 20 | 260 | 59,0 | 78,0 | 19,0 | 2 | 6 | 6 | 6 |
| **Cəmi** | | **52** | **75** | **975** | **53,7** | **75,3** | **21,6** | **8** | **36** | **22** | **9** |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Dövlət vergi orqanlarında hüquqi təminat işinin təşkili | 13 | 18 | 234 | 47,9 | 82,6 | 34,7 | - | 3 | 11 | 4 |
| 2 | | 13 | 13 | 169 | 74,0 | 91,0 | 17,0 | - | 1 | 2 | 10 |
| **Cəmi** | | **26** | **31** | **403** | **56,3** | **76,7** | **20,3** | **0** | **4** | **13** | **14** |
| 1 | Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları üçün tədris kursu | 5 | 12 | 60 | - | - | - | - | - | - | - |
| 2 | | 6 | 8 | 48 | - | - | - | - | - | - | - |
| 3 | | 11 | 5 | 55 | - | - | - | - | - | - | - |
| **Cəmi** | | **22** | **25** | **163** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** |
| 1 | Dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət işinin təşkili | 13 | 20 | 260 | 54,0 | 76,2 | 22,2 | 3 | 6 | 7 | 4 |
| 2 | | 13 | 15 | 195 | 60,0 | 86,0 | 26,0 | - | 1 | 10 | 4 |
| **Cəmi** | | **26** | **35** | **455** | **57,0** | **81,1** | **24,1** | **3** | **7** | **17** | **8** |
| 1 | Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində illik təlim proqramı üzrə ixtisasartırma kursu (TMX_195) | 43 | 22 | 946 | | 90,9 | 4 nəfər imtahanda iştirak etməyib | | | 7 | 11 |
| 2 | Vergi qanunvericiliyi və inzibatçılığı proqramı üzrə ixtisasartırma kursu (KHŞDQ) | 43 | 12 | 516 | | 79,0 | 3 nəfər imtahanda iştirak etməyib | | 3 | 4 | 2 |
| 3 | İstehsal müəssisələrində vergi auditinin keçirilməsi (VAD) | 21 | 32 | 672 | | 79,9 | | | 9 | 21 | 2 |
| 4 | Vergi ödəyicilərinə xidmət mərkəzinin büdcədənkənar fond hesabına müfəttişləri üçün tədris kursu | 10 | 24 | 240 | | 76,0 | | 2 | 9 | 11 | 2 |
| 5 | Dövlət vergi orqanlarında kargüzarlıq və koordinasiya işlərinin təşkili | 11 | 13 | 143 | 65,0 | 85,0 | 20,0 | | 1 | 7 | 5 |
| **Cəmi** | | **128** | **103** | **2517** | **65,0** | **85,0** | **20,0** | **2** | **22** | **50** | **22** |
| **Yekun** | | **423** | **497** | **7477** | **57,7** | **79,4** | **21,7** | **19** | **132** | **230** | **84** |

Tədrisin təşkilində yeni təlim metodlarından istifadə və biliklərin qiymətləndirilməsində yeni texnologiyaların tətbiqi tədrisin keyfiyyətinin yüksəlməsinə öz təsirini göstərmişdir. Belə müsbət nəticələr son dövrlərdə vergi orqanlarında əməkdaşların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi üçün resursların – müasir infrastruktura malik maddi-texniki bazanın və kadr potensialının inkişafının və tədrisin daha keyfiyyətli şəkildə aparılmasının məntiqi nəticəsidir.

Keçirilən təlimlər əsasən Nazirliyin funksional idarələri tərəfindən vergi orqanlarının ehtiyacları nəzərə alınmaqla müəyyən edilmişdir. Bunlar əsasən aşağıdakılardır:

- Kameral vergi yoxlamalarının aparılması qaydası. Mənfəət vergisi bəyannaməsinin xüsusi hissəsi ilə əlavələrinin uzlaşmasına nəzarət qaydası;
- İnsan resurslarının idarə olunması sahəsində fəaliyyət göstərən əməkdaşları üçün təlim;
- Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri;

- Vergi auditinin keçirilməsi qaydaları;
- Vergi borclarının alınması sahəsi üzrə tətbiq edilən mexanizmlər və yanaşma metodları;
- Təlimçilərin təlimi;
- Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında;
- Vergi proqnozlarının icrası strukturlarının əməkdaşları üçün qanunvericilik sahəsində keçirilən təlim;
- Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri;
- Əmək münasibətlərinə və dövlət satınalmalarına vergi nəzarəti;
- Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən göstərilən xidmətlərin tətbiqi;
- Kommersiya hüquqi şəxslərin iştirak paylarının vergiyə cəlb edilməsi, kommersiya qurumlarının dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi;
- Vergi orqanlarında hüquqi işlərin təşkili;
- Vergi potensialının müəyyən edilməsi və vergidən yayınma risklərinin qiymətləndirilməsi;
- Vergi borclarının alınması sahəsi üzrə işlərin təşkili;
- Vergi ödəyicilərinə göstərilən xidmətlər;
- “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununa uyğun olaraq Vergilər Nazirliyinin təsdiq etdiyi yeni normativ sənədlərin tətbiqi;
- Vergi borclarının alınması sahəsi üzrə işlərin təşkili;
- Hüquqi və fiziki şəxslərin uçota alınması və onların uçotunun ləğv edilməsi;
- Dövlət satınalmalarına və əmək münasibətlərinə vergi nəzarəti;
- Vergi partnyorluğu Sazişlərinin bağlanması işinin təşkili;

Auditoriyalar Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikası Vergi Məcəlləsi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikası Cinayət Məcəlləsi, Azərbaycan Respublikası Cinayət Prossesual Məcəllə, Azərbaycan Respublikası Mülki Məcəllə, Azərbaycan Respublikası Mülki Prossesual Məcəllə və digər normativ-hüquqi sənədlərlə təmin edilmiş və hər bir dinləyicinin istifadəsinə verilmişdir.

İxtisasartırma və ilkin hazırlıq kurslarında tədris olunan mövzuların “POWER-POİNT” proqramında təqdimat materialları və keyslər müvafiq qanunvericiliklərə edilən əlavə və dəyişikliklər nəzərə alınmaqla yenidən hazırlanmışdır.

Kursların yekunu üzrə təşkil olunan imtahanların müvafiq test bazalarında qanunvericiliklərə edilən əlavə və dəyişikliklər nəzərə alınmaqla düzəlişlərin aparılması təmin edilmişdir.

Tədris Mərkəzinin 2013-cü il üçün Tədris Kataloqu və İnkişaf Konsepsiyası hazırlanmışdır.

Hazırda Tədris Mərkəzində təşkil edilən təlim kurslarında təlim alətləri kimi "Case" materiallarından, həmçinin beynəlxalq təcrübədə geniş istifadə olunan “Open space” və “World cafe” təlim metodlarından daha geniş istifadə edilir.

İnformasiya və kommunikasiya sistemlərinin tədrisdə tətbiqi ilə bağlı bir sıra təkmilləşdirilmə işləri görülmüşdür. Belə ki, müxtəlif qrup (kafedralar) və ya istifadəçilər (müəllimlər) yaratmaqla onlara sual bankından istifadə etmək hüququnun verilməsi mümkündür. İmtahan pəncərəsindən rahat istifadə etmək üçün internet modulunun yeni dizaynı tətbiq edilmişdir. İmtahanın gedişi zamanı ümumi və imtahan bitdikdən sonra qrup və dinləyici üzrə fərdi olaraq hesabatların, həmçinin ümumi və müqayisəli nəticə və hesabatların alınması imkanı yaranmışdır. Proqram təminatının yeni versiyasını tətbiq etməklə daha çox istifadəçinin eyni anda imtahana daxil olma imkanı yaranmış və test bankı daha əlverişli formada hazırlanmışdır.

Bütün bunlar AVİS-in müvafiq alt sistemində real vaxt rejimində test üsulu ilə imtahanın keçirilməsində şəffaflığın təmin olunmasına xidmət edir.

## 3. Elmi-tədqiqat sahəsində

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına müvafiq olaraq Azərbaycan Respublikası vergilər nazirinin Vergi sisteminin inkişafı üzrə Strateji Plan və Strategiyanın təsdiq edilməsi haqqında 27 fevral 2013-cü il tarixli 1317040100175800 nömrəli əmri ilə təsdiq edilmiş “Vergi sisteminin inkişafı üzrə Strateji Plan” təsdiq olunmuşdur. Tədris Mərkəzi həmin plana əsasən vergi sisteminin inkişafı ilə bağlı elmi-tədqiqat işlərinin aparılmasında icraçılardan biri kimi təyin olunmuşdur.

Müasir dövrdə iqtisadiyyatın qloballaşması ölkələr arasında inteqrasiya əlaqələrinin güclənməsi dövlət tərəfindən həyata keçirilən vergi siyasəti qarşısında yeni və həlli vacib olan problemləri qarşıya çıxarır. Bu problemlərin içərisində vergi siyasətinin iqtisadi inkişafa təsiri və onun stimullaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Vergi siyasəti bir tərəfdən əhalinin həyat səviyyəsinin yüksəlməsində, digər tərəfdən isə büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynayır.

Praktiki təcrübə göstərir ki, elmi cəhətdən əsaslandırılmış vergi siyasəti daha uğurlu nəticələrə gətirib çıxarır. Bu baxımdan, dünya iqtisadiyyatında baş verən proseslərin təhlili və passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidin təmin olunması kimi məsələlər "Müasir qloballaşma şəraitində vergi siyasətinin imperativləri", "Vergitutma bazasının eroziyası və gəlirlərin köçürülməsi", "Kiçik və orta sahibkarlığın vergiyə cəlb edilməsinin müasir problemləri", "Bilik əsaslı kapital və onun vergiyə cəlb edilməsinin müasir problemləri" , «Vergi siyasətinin sosial-iqtisadi bərabərsizliyə təsiri" və digər belə mövzular üzrə elmi araşdırmaların aparılmasını zəruri edir.

2013-cü ildə "Vergi sisteminin inkişafı üzrə Strateji Plan"ında nəzərdə tutulan "Vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi-tədqiqat və araşdırma işinin səmərəliliyinin artırılması" (Planın 21.3-cü bəndi) tapşırığının icrası məqsədilə Tədris Mərkəzində qeyd olunan istiqamətlərdə, o cümlədən "Vergilərin gəlirlərin bərabərsizliyinin azaldılmasında rolu" mövzusunda elmi-tədqiqat işi yerinə yetirilmişdir. Bu istiqamətdə aşağıdakı işlər görülmüşdür:

- "Vergilərin gəlirlərin bərabərsizliyinin azaldılmasına təsiri" mövzusunda elmi-tədqiqat işinin ədəbiyyat, nəzəri-metodoloji, normativ-hüquqi və praktiki informasiya bazası formalaşdırılmış, gəlirlərin bərabərsizliyi probleminin rifah nəzəriyyəsində yeri müəyyən edilmiş və problemin nəzəri əsaslarının ümumidən xüsusiyə istiqamətində tədqiqi aparılmışdır;
- Gəlirlərin bərabərsizliyi probleminin nəzəri-konseptual əsasları müəyyən edilmiş, problemə doğurduğu sosial-iqtisadi nəticələr prizmasından yanaşmaqla səbəb-şərait-nəticə kontekstində araşdırmalar aparılmışdır;
- əhalinin gəlirlərə görə bərabərsizliyinin səviyyəsi təhlil edilərək qiymətləndirilmişdir;
- vergilərin gəlirlərin artımına və gəlirlərin təkrar bölgüsünə təsiri istiqamətində əməli təkliflər hazırlanmışdır;
- əhalinin gəlirlərinin artırılması və bərabərsizliyin daha da azaldılması üçün sosial və investisiya xarakterli vergi güzəştlərinin tətbiqi üzrə təkliflər verilmişdir;
- vergi güzəştlərinin nəticəliliyinin və səmərəliliyinin müəyyən edilməsi üçün meyarlar dəsti təklif olunmuşdur;
- həmin meyarların qiymətləndirilməsi üçün müvafiq monitorinqlərin keçirilməsi ilə bağlı ideyalar irəli sürülmüşdür;

- əhalinin vergi mədəniyyətinin və vergidən yayınma hallarının daha  da azaldılması tədbirlərinin gəlirlərin bərabərsizliyinə təsiri araşdırılmış, bu istiqamətdə təkliflər verilmişdir;
- gəlirlərin bərabərsizliyinin azaldılmasına yönəlmiş vergi siyasətindən istifadə məsələlərində  xarici ölkələrin təcrübələri öyrənilmiş və ümumiləşdirilmişdir;
- sosial vergi güzəştlərinin ünvanlılığının təmin edilməsi üçün ümumi bəyannamə sisteminə keçidə dair araşdırmalar aparılmışdır.

Mərkəzdə elmi-tədqiqat işlərinin aparılması ilə yanaşı,  “Beynəlxalq vergi-maliyyə terminləri” üzrə lüğət hazırlanmış, 500 terminin ingilis və rus dilində tərcüməsi verilmiş, həmin terminlərin iqtisadi məzmunu müəyyən edilmişdir.

Cari ildə “Vergi və investisiya mühiti” adlı 376 səhifəlik kitab,  “İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri” adlı 392 səhifəlik monoqrafiya və ilkin hazırlıq dinləyiciləri üçün “Vergiyə giriş” adlı 651 səhifəlik dərslik nəşr olunmuşdur.

2013-cü ildə Mərkəzin əməkdaşlarının respublikanın müxtəlif elmi jurnallarında, xüsusilə “Azərbaycanın vergi jurnalı”nda, o cümlədən nüfuzlu xarici jurnallarda vergitutmanın müxtəlif mövzularına həsr olunmuş 20 elmi məqaləsi nəşr olunmuşdur. Mərkəzin əməkdaşları ölkəmizdə və xarici ölkələrdə keçirilən vergitutma ilə bağlı elmi-praktiki konfranslarda da fəal iştirak etmişlər.

Cari ildə Mərkəzin kitabxanasının daha da zənginləşdirilməsi üçün müasir iqtisadi ədəbiyyatın, o cümlədən iqtisad elminin klassiklərinin və müasir alimlərin müəllifliyi ilə nəşr olunan ədəbiyyatların siyahısı yenidən tərtib olunaraq alınması üçün Mərkəzin rəhbərliyinə təqdim olunmuş, sözügedən ədəbiyyatın bir qismi alınaraq dinləyicilərin və mərkəzin əməkdaşlarının istifadəsinə verilmişdir.

Hesabat dövründə “İlkin hazırlıq” kursları üzrə referat işlərinin elektron  arxiv bazası yaradılmışdır.

### 4. Xarici təcrübənin öyrənilməsi sahəsində

Vergi əməkdaşlarının tədrisinin təşkili sahəsində təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndə heyəti 16-18 aprel 2013-cü il tarixində Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsində səfərdə olmuş, müxtəlif mövzular ətrafında geniş müzakirələr aparmışdır.

Aidiyyəti mövzular haqqında Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsinin Təlim Mərkəzinin zəngin təcrübəsinin öyrənilməsi və müqayisəli təhlilin aparılması məqsədilə

Mərkəz tərəfindən 3 günlük proqram təşkil olunmuşdur ki, Vergilər Nazirliyinin nümayəndə heyəti 2 gün Təlim Mərkəzinin Baş Ofisində (London şəhəri), 1 gün isə Linkoln şəhərində təlim keçmək imkanına malik olmuşdur.

Səfər çərçivəsində tədris ehtiyaclarının müəyyənləşdirilməsi və təsnifatı, karyeranın idarə olunması, təlim proqramının (məqsədlər, əhatə dairəsi, dinləyiciyə çatdırılma üsulları, qiymətləndirmə) hazırlanması, bacarıqların idarə olunması və peşə hazırlığı, liderlik və idarəetmə, Vergi Akademiyasının proqramı, tədrisin idarəetmə sistemi, təlim və vizual materialların, işgüzar oyunların və keyslərin hazırlanması, təlim prosesinin təşkili, təlimçilərin seçilməsi meyarları, bacarıqların qiymətləndirilməsi və keyfiyyətin təmin edilməsi kimi mövzular Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsinin Təlim Mərkəzinin müxtəlif təlimçiləri tərəfindən tədris olunub, geniş izah edilmişdir.

Səfər müddətində əldə olunan təcrübə nəzərə alınmaqla e-tədris resurslarından, internet texnologiyalardan tədris prosesində istifadənin təkmilləşdirilməsi, e-tədris texnologiyalarından istifadə, ehtiyacların öyrənilməsi sisteminin təkmilləşdirilməsi, bütün təlim qruplarının, yəni böyük və baş menecerlərin də tədris prosesinə cəlb edilməsi, onlar üçün xüsusi proqramların hazırlanması, himayədarlıq mədəniyyətinin inkişaf etdirilməsi, onların vəzifə və funksiyalarının müəyyən edilməsi, hər kəsin himayədarlıq vərdişinə yiyələnməsi üçün kuratorun (himayədarın) fəaliyyətinin monitorinqinin keçirilməsi, kuratorların fəaliyyətinin qiymətləndirilməsi, test suallarının rəy alınması üçün Tədris-metodiki Şuraya təqdim edilməsi və bir sıra digər məsələlərin həll edilməsi məqsədilə təkliflər verilmişdir.

09-11 aprel 2013-cü il tarixlərində Vergilər Nazirliyinin Şamaxı şəhərində yerləşən Tədris Mərkəzində beynəlxalq ekspertin iştirakı ilə “İnsan resurslarının idarə olunması” mövzusunda 3 günlük Təlim kursu keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin İnsan resursları İdarəsi, Hüquq İdarəsi və digər struktur bölmələrinin əməkdaşları iştirak etmişdir.

Təlim kursunun hədəfi 4 istiqamət – Liderlik, Motivasiya, Qiymətləndirmə, Təlim üzrə müəyyənləşdirilmişdir. Burada, insan resurslarının müasir idarə olunmasının əsasları, Liderlik və İdarəetmə arasında olan oxşar və fərqli xüsusiyyətlər, mövcud idarəetmə üslubları və formaları, uğurlu liderliyə aparan amillər, daxili və xarici motivasiyanın, müxtəlif nəzəriyyələrin mövcudluğu, Təsəvvürün Formalaşması Prosesi, qiymətləndirmə - bacarıqların araşdırılması sistemi kimi xarakterizə olunması, qiymətləndirmədə aşağıdan yuxarıya doğru prinsipinə əməl olunması, işçilərlə bərabər menecerlərə təlim keçmək vacibliyi və s. aidiyyəti məsələlər müzakirə olunmuşdur.

Təlim interaktiv, fikir mübadiləsinin təşkili formatında təşkil olunmuşdur ki, burada verilmiş tapşırığa əsasən iştirakçılar komandalara bölünüb müstəqil düşünmək və qərar qəbul etmək imkanı əldə etmişlər. Təlim zamanı iştirakçıların təlimdən gözləntiləri, təlimdən əldə etdikləri bilikləri, təlimdən əldə olunan təcrübələrin tətbiq olunacaq yolları və ümumiyyətlə, təlimin keyfiyyəti və insan resurslarının inkişafı ilə bağlı təklifləri dinlənilmişdir. Ekspert və iştirakçılar arasında xüsusi maraq doğuran Vergilər Nazirliyinin 2004-cü ildə təsdiq edilmiş İnsan resurslarının inkişafı Konsepsiyası və Nazirlikdə tətbiq olunan qiymətləndirmə sisteminin müzakirəsi olmuşdur və bu istiqamətdə müəyyən təkliflər səsləndirilmişdir:

- Vergilər Nazirliyinin İnsan resurslarının inkişafı Konsepsiyasına və qiymətləndirmə meyarlarına yenidən baxılması, Vergilər Nazirliyinin strukturlarında aşağıdan yuxarı qiymətləndirmə üsulunun tətbiq edilməsinə dair pilot layihənin hazırlanması;
- Keçirilmiş təlimlərin son nəticələrinin buklet şəklində çap edilməsi və ya AVİS Proqramında qeydiyyata alınaraq bütün vergi əməkdaşlarının diqqətinə məlumat üçün göndərilməsi;
- Təlimlərin mütəmadi olaraq keçirilməsi və feedback-in (əks əlaqə) geniş tətbiq olunması.

2013-cü ilin 22-24 may tarixlərində Avstriya Respublikasının paytaxtında Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (İOTA) tərəfindən keçirilmiş Treninq Forumda iştirak məqsədilə Vergilər Nazirliyinin nümayəndə heyətinin tərkibində Tədris Mərkəzinin əməkdaşı Vyana şəhərinə səfər etmişdir.

Təlim Forumunda tədris və təlimin bizneslə əlaqəsi, keyfiyyətli tədris, istedadların idarə olunması və təlim, təhsilin yeni üsulları: elektron təhsil (e-learning), kombinə olunmuş təhsil (b-learning) və mobil təhsil (m-learning), yeni təlim metodları ("açıq səma" – "open space") müzakirə edilmişdir.

Təlim Forumunun yekunu ilə bağlı olaraq qeyd edilə bilər ki, Vergilər Nazirliyi sistemində təlim-tədris sahəsində davamlı inkişafın təmin edilməsi, Tədris Mərkəzində təlim və tədrisin səmərəliliyinin artırılması və bu sahədə işin beynəlxalq səviyyədə qurulması məqsədilə İOTA-nın 2014-cü ildə keçiriləcək növbəti 11-ci Təlim Forumunun Azərbaycan Respublikası Vergilər Nazirliyinin Şamaxıda yerləşən Tədris Mərkəzində keçirilməsi üçün təşəbbüsün göstərilməsi, İOTA-ya üzv ölkələrinin vergi administrasiyalarında təlim-tədris sahəsində yaxşı təcrübələrinin öyrənilməsi və tətbiqi, təlim proseslərində "Açıq fəza" ("open space") metodundan geniş istifadə olunması və s. kimi tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiqdir.

Eyni zamanda, Azərbaycan Respublikası vergilər nazirinin 19 mart 2013-cü il tarixli Vergilər Nazirliyinin təlimçiləri üçün təlim kursunun keçirilməsi barədə müvafiq əmrinə uyğun olaraq 2013-cü il mayın 14-dən 16-dək olan müddətdə Avstriya Federal Maliyyə Akademiyasının və yerli ekspertlərin iştirakı ilə vergi orqanlarının təlimçiləri üçün təlim kursunun keçirilməsi təmin edilmişdir. Təlim kursuna Nazirliyin müxtəlif qurumlarından 43 vergi orqanı əməkdaşı cəlb olunmuşdu.

Təlimçilərin təliminin keçirilməsində məqsəd təlimçilər tərəfindən daha müasir tədris metodlarının və tədrisin texniki üsullarının mənimsənilməsi, onların bir təlimçi kimi dinləyici qruplarını idarə etmək və müxtəlif metodlardan (məsələn, ayrı-ayrı halların təhlili, qrup tapşırıqları) istifadə etmək bacarıqlarını təkmilləşdirməklə özlərinə inamını artırmaq və təlimçilərə praktiki tədris vərdişlərinin aşılanması olmuşdur.

Təlimçilərin təlimi kursunun yekunu olaraq Nazirlik sistemində yaxşı təlimçi ordusunun formalaşdırılması və onların bu sahədəki peşə hazırlığı səviyyəsinin daim yüksək səviyyədə saxlanılması üçün ilk növbədə təlimçilərin seçilməsi kriteriləri müəyyənləşdirilməli və təlimçilər üçün “Təlimləri necə təşkil etməli?” kitabçasının hazırlanması məqsədəuyğun hesab edilmiş və bu istiqamətdə işlər davam etdirilir.

Tədris kurslarının səmərəliliyinin təmin olunması, dinləyicilərin peşə hazırlığının və bilik səviyyəsinin ilkin və son qiymətləndirilməsinin aparılması zamanı istifadə olunan proqram təminatında, son yeniliklərin öyrənilməsi məqsədi ilə Tədris Mərkəzinin əməkdaşları 2-4 sentyabr 2013-cü il tarixlərdə Türkiyənin paytaxtı Ankara şəhərində təlimdə iştirak etmişlər.

Təlimdə aşağıdakı məsələlər müzakirə edilmişdir:

1. Tədris prosesinin səmərəli təşkili və daha çox diqqət yetirilməli olan məsələlərin dəqiqləşdirilməsi məqsədilə ilkin qiymətləndirilməsi və tədris kursunun sonunda məqsədə nə qədər nail olunduğunun müəyyən edilməsi üçün son qiymətləndirmə aparılması qaydaları;

2. İmtahanların kompüterdə onlayn rejimdə və kağız üzərində test formasında keçirilməsi;

3. Müxtəlif qrup (kafedralar) və ya istifadəçilər (müəllimlər) yaratmaqla onlara sual bankından istifadə hüquqlarının verilməsi;

4. İmtahan pəncərəsindən daha rahat istifadə etmək üçün internet modulunun yeni dizaynda hazırlanması;

5. İmtahanın gedişi zamanı ümumi və imtahan bitdikdən sonra qrup və ya dinləyici üzrə fərdi olaraq hesabatların, həmçinin ümumi və müqayisəli nəticə və hesabatların alınması;

6. Proqram təminatının yeni versiyasını tətbiq etməklə daha cox istifadəçinin eyni anda imtahana daxil olma imkanı və test bankının daha əlverişli formada hazırlanması;

7. Distant tədrislə bağlı təkliflər.

28 oktyabr - 01 noyabr 2013-cü il tarixlərdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndə heyəti tərkibində Tədris Mərkəzinin əməkdaşı olmaqla Avropadaxili Vergi Adminstrasiyaları Təşkilatının dəvəti ilə Makedoniyanın Skopye şəhərinə səfər etmişdir.

Səfərin məqsədi vergi öhdəliklərinin düzgün müəyyən edilməsi və vaxtında yerinə yetirilməsinin təhsil vasitəsilə artırılması, vergi ödəyicilərinin vergitutma ilə bağlı məlumatlılığının artırılmasında müxtəlif təhsil və təlim texnologiyalarından istifadə edilməsi, vergi ödəyicilərinə xidmət, təlim və tədris proseslərinin təşkili sahələrində təcrübə mübadiləsinin aparılması olmuşdur. Tədbirdə İOTA-ya daxil olan ölkələrdən 14-ü nümayəndələri ilə təmsil olunmuşdur. Tədbir çərçivəsində İOTA-nın təhsil vasitəsilə əməletmənin artırılması üzrə ümumi təcrübəsi, o cümlədən Finlandiyanın, Makedoniyanın, Avstriyanın, Hollandiyanın, İspaniyanın, Norveçin təcrübəsi öyrənilmişdir. Əldə olunan biliklər əsasında Azərbaycanda da əməletmənin təhsil vasitəsilə artırılması istiqamətində bir sıra təkliflər verilmişdir:

1. Avropa ölkələrində vergi ödəyicilərinin maarifləndirilməsi və əməletməyə təhsil vasitəsilə nail olunması xüsusi hazırlanmış və uzun müddəti əhatə edən Proqramlar əsasında təşkil olunur. Azərbaycanda da vergi ödəyicilərinin öyrədilməsi, vergitutma ilə bağlı məlumatlılığın artırılması və onlara vergi əxlaqının aşılanması işlərinin sistemliliyini gücləndirmək üçün belə Təhsil Proqramlarının hazırlanması və həyata keçirilməsi məqsədəuyğun ola bilər.

2. Təhsil və təlim tədbirlərinin əhalinin mümkün qədər böyük hissəsini əhatə etməsi, gənc nəslin öyrədilməsinin prioritet xarakter daşıması, təlim proqramlarının ayrı-ayrı hədəf qrupları üzrə diferensiasiyası, hədəf qruplarının xüsusiyyətlərini nəzərə alan təlim metodlarından və materiallarından istifadənin təmin edilməsi belə tədbirlərin səmərəliliyini artıra bilər.

3. Hədəf qrupları olaraq “orta məktəbin aşağı, orta və yuxarı sinif şagirdləri”, “ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri”, “yeni qeydiyyatdan keçmiş ödəyicilər”, “vergi ödəyicilərinin mühasibləri”, “vergi orqanının əməkdaşları”, “digər əlaqəli dövlət orqanlarının əməkdaşları” seçilə bilər.

4. Təhsil Proqramının əsas müddəaları aşağıdakı istiqamətlər üzrə tərtib oluna bilər:

- təhsil üçün ehtiyacların müəyyən edilməsi;

- təhsilin hazırlanması və təşkili;
- keçirilən treninqlər və onların nəticələrinin qiymətləndirilməsi;
- təhsilin təkamülü üzrə ideyalar.

5. Təhsil Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları ilə əməkdaşlığın gücləndirilməsi, birgə təlimlərin hazırlanması və tətbiqi;

6. Ali və orta ixtisas təhsili müəssisələrində vergilərin ictimai əhəmiyyəti və vergitutmanın əsas müddəaları barədə məlumatların gənclərə çatdırılması məqsədilə xüsusi proqramların həyata keçirilməsi;

7. Ali və orta ixtisas müəssisələrində bütün ixtisaslar üzrə tədris planlarına “Vergi sistemi” adlı fənnin salınması, bu fənnin tədrisində müasir standartlara cavab verən təlim texnologiyalarından və materiallarından istifadənin təmin olunması.

8. Vergi orqanlarının əməkdaşlarının verginin cəmiyyət və onun hər bir üzvü üçün əhəmiyyəti, mövcud vergilər üzrə ümumi xarakter daşıyan əsas müddəalar barədə məlumatları təqdim etmək məqsədilə məktəblərə mütəmadi səfərlərinin təşkili.

9. Təlim prosesində gənc nəslə gizli iqtisadiyyatın necə qaranlıq bir gələcəyə aparılmasının göstərilməsinin təmin edilməsi. Gənc nəslin öyrədilməsinin və təhsilin əsas obyekti ictimai xərclər və ictimai gəlirləri kontekstindən yanaşmaqla aşağıdakı kimi müəyyən edilə bilər:

- müxtəlif ictimai xidmətlərin müəyyən edilməsi və gənclərin bu xidmətlərlə bağlı iqtisadi və sosial dəyərlərinin daha şüurlu olmasına nail olunması;
- ictimai xidmətlərin maliyyələşdirilməsi mənbələrini, xüsusilə vergi mənbələrini tanıtmaq;
- hər kəs üçün hər kəs tərəfindən maliyyələşdirilən xidmətlərə hörmətin artırılması;
- fiskal məsuliyyətin birgə və demokratik yaşayışın əsas dəyərlərindən birinə çevrilməsi.

10. Təlimlərin səmərəliliyinin artırılması üçün təlim alətlərinin və formalarının seçilməsi: birbaşa ünsiyyət (auditoriyalarda təlimlər), internet resurslar (ödəyicinin istədiyi zamanda və istənilən yerdə öyrədici materiallardan istifadə imkanının təmin edilməsi), TV-verilişlər və diskussiyalar və s.

11. Təlim üçün istifadə olunacaq informasiya texnologiyalarının səmərəliliyini qiymətləndirmək üçün ideyalar:

- istifadəçilərin yaş qrupları üzrə bölünməsi və istifadə intensivliyinin müəyyən edilməsi;

- istifadəçilər arasında internet-sorğuların keçirilməsi;
- məlumatların avtomatik toplanması;
- əməletmə üzrə daha çox tədqiqatın aparılması.

## 5. Maliyyə-təsərrüfat sahəsi üzrə

Vergilər Nazirliyinin Tədris Mərkəzinin 2013-cü il üzrə dövlət büdcəsində saxlanılması xərcləri smetası layihəsinin tərtib edilməsi və həmin layihənin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə göndərilməsi üçün Vergilər Nazirliyinə təqdim edilməsi və müdafiəsi təmin edilmişdir.

Ştat cədvəllərinin tərtib olunmasına dair təkliflərin hazırlanması və Mərkəzin saxlanılmasına dair xərc smetasının ştat cədvəlinə müvafiq təsdiq olunması təmin edilmiş, aylıq əmək haqqı ştat cədvəlinə, əlavə ödənişlərin isə xərc smetasına uyğun olaraq istifadə edilməsi işləri təşkil olunmuşdur. Mərkəzin saxlanmasının smeta xərclərinin icrasına və büdcədənkənar fondun vəsaitlərindən istifadə edilməsinə dair hesabatların, habelə statistik hesabatların tərtib edilməsi, Vergilər Nazirliyinə və aidiyyatı üzrə digər orqanlara təqdim olunması işləri vaxtı-vaxtında icra edilmişdir.

Təsərrüfat və təchizat işləri üzrə müvafiq idarə, müəssisə və təşkilatlarla müqavilələrin bağlanması işlərinin təşkil edilməsi, həmçinin bu müqavilələr üzrə şərtlərin, öhdəliklərin icraçı təşkilatlar tərəfindən yerinə yetirilməsinə nəzarət təmin olunmuş, yerinə yetirilmiş işlərin və göstərilmiş xidmətlərin qəbul edilməsi sahəsində işlər yerinə yetirilmişdir.

Mərkəzin təchizat məsələləri üçün tələbatın ödənilməsi məqsədilə müxtəlif xərc maddələri üzrə kotirovka sorğuları aparılmış və icrası təmin edilmişdir.

Tədris Mərkəzinin 2014-cü il üzrə dövlət büdcəsində saxlanılması xərcləri smetası layihəsi tərtib edilmiş və layihə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə göndərilməsi üçün Vergilər Nazirliyinə təqdim edilmişdir.

Tədris Mərkəzinin balansında olan əsas vəsaitlərin, material qiymətlilərin inventarizasiyası aparılmış və nəticəsi üzrə tərtib olunmuş aktlar aidiyyəti üzrə təqdim edilmişdir.

Mərkəzin inzibati binasının və digər tikintilərin mühafizəsinə, yanğın təhlükəsizliyi texnikasının tələblərinə uyğun olaraq müvafiq qaydalara, inzibati binanın və digər tikililərin təmizliyinə, elektrik enerjisindən və içməli sudan qənaət rejiminə ciddi riayət olunmasına nəzarət və əməl edilmişdir.